Fevralın 10-dan 14-dək "Britaniya Şurası"nın "İş bacarıqları" ("Skills@work") layihəsi çərçivəsində İngiltərənin London şəhərində "Qloballaşma dövründə işəgötürənlərin peşə təlimi və tədrisinə cəlbi" mövzusunda beynəlxalq seminar keçirilib. Seminarda İngiltərə, Avstriya, Türkiyə, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Nepal, Əfqanıstan, Pakistan, Rumıniya, Bolqarıstan, Sloveniya, Serbiya, Monteneqro, Xorvatiya nümayəndələri ilə yanaşı həmçinin, Azərbaycan Respublikası Təhsil Nazirliyi Texniki-peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədov və Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndəsi Bahəddin Şabanov da iştirak edib. Seminarın keçirilməsində əsas məqsəd peşə təhsili sahəsi inkişaf etmiş ölkələrin təcrübələrinin öyrənilməsi, həmin ölkələrdə mövcud istiqamətdə həyata keçirilən siyasətin xüsusiyyətləri haqqında məlumat toplamaq, gələcək inkişaf perspektivlərini müəyyənləşdirmək və müzakirələr aparmaq olub. Seminarda, həmçinin təcrübə mübadiləsi həyata keçirilməsi məqsədilə bir sıra ölkələrin nümayəndələri ilə müzakirələr keçirilib, eyni zamanda Londonun bir sıra peşə təhsili müəssisələrinə səfərlər də təşkil olunub. Məlumat üçün qeyd edək ki, Təhsil Nazirliyi Texniki-peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədov "Britaniya Şurası"nın nümayəndələri ilə Azərbaycan və Britaniya peşə məktəbləri arasında qarşılıqlı əlaqələrin qurulması, Böyük Britaniyanın "LJ Create" şirkətinin Marketinq üzrə direktoru cənab Damian Breeze ilə görüşdə isə ölkəmizdə avtomobil diaqnostikası üzrə peşə məktəbinin yaradılması barədə fikir mübadiləsi aparıb.